# Tələbələrdə təlim və tərbiyənin vəhdətinin psixoloji mahiyyəti

**Yamən Vəliyeva**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universiteti*
**Kamilə Kazımova**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin baş müəllimi*
**E-mail:** kamile_kazimova@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d., dos. M.S. Əliyev

**Açar sözlər:** təlim, tərbiyə, universitet, motiv, idrak prosesləri, intellekt, tələbat, əxlaq, qabiliyyət, estetik, şəxsiyyət, effekt, əqli fəaliyyət, elmi dünyagörüşü, məsuliyyətlik hissi, iradi keyfiyyəti, professional təfəkkür, ustanovka, psixoloji, pedaqoji, diskussiya

**Ключевые слова:** обучение, воспитание, университет, мотив, познавательные процессы, интеллект, потребности, нравственность, способности, эстетическое, личность, эффект, умственная деятельность, научное мировоззрение, чувство ответственности, волевые качества, профессиональное мышление, установка, психологическое, педагогическое, дискуссия

**Key words:** education, education, university, motivation, cognitive processes, intelligence, demand, morality, abilities, aesthetics, personality, effect, mental activity, scientific outlook, sense of responsibility, quality of thought, professional thinking, masterpiece, psychological and pedagogical discussion

Təlim və tərbiyə sözlərinin mənasının müxtəlifliyinə baxmayaraq, tələbələrin təlim və tərbiyə prosesi vəhdət təşkil edir. Şəxsiyyətin formalaşması və inkişafi bu qarşılıqlı prosesin iki tərəfidir. Tərbiyənin nailiyyəti hissləri, intellektual qabiliyyətləri, estetik tələbatı və zövqü, fiziki keyfiyyətlərinin inkişafını təmin etməkdən ibarətdir. Təlim və tərbiyənin vəhdətini həyata keçirdikdə yaş, sosial psixoloji xüsusiyyətlər, tələbələrin fərdi qabiliyyətləri, onların təlimə münasibətini nəzərə almaq lazımdır.

Universitet tələbələri - digərləri ilə müqayisədə intellektual qabiliyyətlərə malik, yüksək inkişaf etmiş insanlardır. Onların mənəvi dünyası, idrak qabiliyyətləri, əxlaq və fiziki keyfiyyətləri gələcəkdə yüksək nailiyyət əldə etməsinə müsbət təsir edir. Tələbələr təhsil, tərbiyə alaraq yüksək ixtisaslı mütəxəssislər kimi yetişir. Gələcəyə yönəlmə, sosial sərbəstliyi qazanma istəyi tələbələrdə ixtisasa yiyələnmə prosesini sürətləndirir. Ona görə də mühüm olan məqam təlim və tərbiyənin vəhdətini vacib saymaqdır. Sosial professional idraki motivlər tələbələrin təlimə şüurlu münasibətini gücləndirir və şəxsiyyət kimi formalaşmasına təkan verir.

Tələbələrin şəxsiyyət kimi inkişafında əsas məqam onların öz üzərində çalışmalarıdır. Tələbə öz biliklərini genişləndirərək, yeni bacarıq və biliklər qazanaraq daxilən əhəmiyyətli dərəcədə dəyişir, öz qabiliyyətlərini, mənəvi tələbatlarını inkişaf etdirir və bununla güclü və möhkəm xarakterə yiyələnir. Tələbədə tərbiyə və özünütəhsil istəyi aktivləşmirsə təlim və tərbiyə gözlənilən nəticəni vermir.

Tələbənin özünün hazırlığı - kitab oxuması, çoxlu sayda tapşırıqlar etməsi - baş vermirsə

ən maraqlı, məzmunlu mühazirələr belə yaxşı mütəxəssis hazırlaya bilməz. Mahiyyətcə tələbənin təhsili - müəllimlərin tələbənin təlimini təşkil etməsindən və tələbənin özünütəhsil qabiliyyətindən asılıdır. Təhsil - əslində özünü təhsil deməkdir.

Qanunauyğun haldır ki, xarici təsirlər insana onun fikirləri, təhsili, əhval ruhiyyəsi, təcrübəsi vasitəsilə təsir edir. S.L. Rubinşteyn qeyd edirdi ki, bizə həyatda təsir edən hər bir hadisə həmişə əvvəlki yaşantılarımız və fikirlərimizlə bağlıdır. Tələbənin malik olduğu fərdi keyfiyyətlərin, cari motivlərin və psixi xüsusiyyətlərin nəzərə alınması effektiv pedaqoji təsirdir (s.178).

Tələbənin şəxsiyyətinin inkişafının daxili səbəbləri onun psixikası, davranışının motivləri və fərdi keyfiyyətləri ilə əlaqədardır. Onların ifadəsi və dəyişilməsi üsulu tələbənin şəxsiyyətin inkişaf qanunauyğunluqları ilə müəyyən olunur.

Müxtəlif inkişaf etaplarının nəzərə alınması vacibdir. Tərbiyə etapların sürətlənməsinə və ya azalmasına təsir edə bilər, amma onları görməzdən gələ bilməz. Psixi proseslər və keyfiyyətlər, müxtəlif tələbələrin psixi inkişafinda fərqli şəkildə inkişaf edə bilər. Ali məktəbdə tərbiyənin və təlimin nəticəsi tələbənin fərdi münasibətindən, seçdiyi ixtisas, kollektivə, özünə və tədrisə marağından asılıdır. Ona görə də mütəxəssisin yetişdirilməsində optimal xarici şəraitdən başqa həm də daxili, yəni tələbə şəxsiyyətinin inkişafının daxili qanunauyğunluqlarını nəzərə almaqla şərait yaradılmalıdır. Bu faktor təlimin və tərbiyənin məqsədyönlü və planlı həyata keçirilməsi üçün vacibdir. Pedaqoji təsirin forma və məzmunu təlim və tərbiyənin məqsədlərinə, tələbənin fərdi və sosial xüsusiyyətlərinə cavab verdikdə effektivdir.

Tələbənin yaş və digər xüsusiyyətlərinin nəzərə alınması, keyfiyyətli təlimin (bilik, bacarıq və qabiliyyətlər) və tərbiyənin (dünyəvi və əxlaqi inkişaf, iradənin möhkəmlənməsi, tələbə üçün vacib olan professional keyfiyyətlər) vəhdətinin effektivliyinin artırılmasına imkan verir. Pedaqoji ədəbiyyatlarda universitet təlim və tərbiyəsinin prinsipini məktəb prinsipləri ilə eyniləşdirirlər. Universitet təlim və tərbiyəsi spesifikdir, məktəb prinsiplərindən başqa burada aşağıdakı kimi prinsipləri ayıra bilərik:

— universiteti bitirdikdən sonra praktik iş üçün vacib olanları öyrətmək;
— tələbələrin yaş, sosial psixoloji, fərdi xüsusiyyətləri nəzərə almaq;
— təlim və tərbiyənin professional istiqaməti;
— təlimin elmlə, ictimaiyyətlə və istehsal fəaliyyəti ilə əlaqələndirilməsi.

Təlimdə və təhsil prosesində tələbə aktiv olmalıdır ki, onu fəaliyyətə sövq edən müsbət motivlərin formalaşdırılması yaransın. Tərbiyəedici üçün tədris tərbiyə materialının planından başqa onun şəxsi keyfiyyətlərini formalaşdıran fəaliyyət də proqramlaşdırılmalıdır. Tələbənin gələcək peşəsi üçün qazanılmış bilik, bacarıq və keyfiyyətlər yararlı olmalıdır. Məhz aktiv tətbiqi fəaliyyət tələbənin təlimə, kollektivə, özünə münasibətini formalaşdırır. Bunun sayəsində gələcək mütəxəssisin şəxsiyyəti formalaşır.

İnkişaf və təhsil heç bir insana təbiətdən verilmir və ya məlum deyil. Təlim və tərbiyə ilə tanış olmaq istəyən bir şəxs onu öz fəaliyyəti, öz zəhməti vasitəsi ilə əldə edə bilər. Xaricdən yalnız həvəsləndirici təsirlər qazanmaq olar. İnsanın öz gücü ilə əldə etmədiyi heç nə onun deyil.

Tələbənin yaradıcı fəaliyyəti repruduktiv fəaliyyətdən başlayır və bu özlüyündə bir neçə mərhələ keçir. Yaradıcı aktivliyin ən yuxarı pilləsi tələbənin sərbəst şəkildə problemi qoya bilməsi, optimal variantı axtarması və həllini tapmasında özünü göstərir. Bu o deməkdir ki, universitet təlimi, tələbələri, gələcəyin mütəxəssisini qarşılaşacağı professional, təşkilati və digər problemli situasiyaların həllinə hazırlamalıdır.

Gələcək mütəxəssislərin təlim və tərbiyəsinin fasiləsiz və mürəkkəb proses olan vəhdətini təşkil etmək müəllim fəaliyyətinin qanunauyğun tələbinə aiddir. Müvəffəqiyyətlə tədris və tərbiyə etmək istəyən hər bir müəllim prosesin mahiyyətini bilməli və onu idarə etməyi bacarmalıdır. Tələbə tədris qrupunun tərkibini, tələbənin fərdi xüsusiyyətlərini, tədris tapşırıqlarına münasibətini nəzərə alaraq müəllimlər tədris, tərbiyə işində ən effektiv üsul və qaydaları seçib ən düzgün pedeqoji qərar verirlər.

Müəllim tərəfindən müxtəlif pedaqoji priyomlar və texniki vasitələrlə yaradılan "problemli təlim" prinsipi yeni bilik və bacarıqların yaradılmasında perspektivlidir. Məsələn tədris oyunları – məzunların professional oyunlarının modelinin qurulmasında problemə yönəlmiş təlimin təşkilinin özünəməxsus formasıdır. Problemə yönəlmiş təlimin ən məqsədyönlü texnologiyası didaktik oyun olmalıdır.

Praktika həmişə müəllimlərin qarşısında belə bir sual qoyur: pedaqoji, psixoloji faktorlardan necə effektiv istifadə etmək və mənfi halları necə aradan qaldırmaq olar (psixoloji baryerin yaranması, təlimə formal münasibət və s.)?

Müəllim təlim və tərbiyənin vəhdətinin və qarşısına qoyduğu məqsədin reallaşdırılması üçün bunları etməlidir: gələcək mütəxəssis üçün vacib olan şəxsi keyfiyyətləri, bu keyfiyyətlərin tələblərə və inkişafın qanunauyğunluqlarına cavab verdiyini, təlim və tərbiyənin real məqsədlərini müəyyənləşdirməlidir. Ayrı-ayrı fənlərin ustanovkaları siyasi, elmi və psixopedeqoji əlavələrin deduksiyaları deyildir. Ustanovkalar müəyyən fəndə mövcud olan tərbiyəedici imkanlar vasitəsilə yaradılır. Bu funksiyaları bir-birinə qarşı qoyaraq biz fənnin məqsədi və mütəxəssisin yetişdirilmə sistemindəki rolu haqqında dəqiq təsəvvür əldə edə bilərik. Bu analizin əsasında "elmin əsaslarının mənimsənilməsi" deyil, tələbənin təlim və tərbiyəsinin məqsədlərinin dəqiq müəyyənləşdirilməsi durur. Bu müəyyənləşmə verilən fənnin tədrisi prosesində əldə oluna bilər. Təlim tədris prosesində belə yanaşma pedaqoqa gələcək mütəxəssis şəxsiyyətinin keyfiyyətlərinin yetişdirilməsinə kömək edir. Hər bir fəndə tərbiyə edici imkanların uğurla istifadəsi pedaqoqun tələbədə yetişdirməyə vacib bildiyi bilik və keyfiyyətləri formalaşdırır. Buraya dünyagörüşü, əxlaqi, estetik, fiziki keyfiyyətlər aiddir.

Məqsədlə bağlı ustanovkalar özündə bu və ya digər fənlə bağlı fənn tədrisinin mahiyyətini və xüsusiyyətlərini əks etdirməlidir. Bu, həmçinin müəyyən fənnin təsiri altında şəxsiyyətin inkişafında baş verə biləcək dəyişiklikləri öncədən müəyyən etməklə sıx bağlıdır. Müəllimlər məqsədlə bağlı ustanovkaları, perspektivləri düzgün müəyyən etsələr çox asan bir şəkildə müxtəlif metod və üsullardan öz peşələri üçün vacib olanları seçə biləcəklər.

Kafedranın əməkdaşları, fənlərin məqsədlə bağlı ustanovkalarını birgə işləyib hazırlasalar onlar çox effektiv şəkildə tədris tərbiyə imkanlarından istifadə edə bilərlər. Bu da öz növbəsində təlimi tərbiyə ilə birləşdirməyə və tələbə şəxsiyyətinin formlaşdırılmasına təsir edəcək.

Hər bir peşə ona yiyələnmək üçün qarşısında böyük tələblər qoyur. O, məqsədyönlü, çevik, sürətli və dəqiq olmalıdır.

Tələbələrin professional təfəkkürünün formalaşması üçün əvvəlcə onların bilik və dərketmə qabiliyyətini gücləndirmək lazımdır, hansı ki, gələcəkdə təlimlə bağlı məsələlərin həlli üçün bu əvəzolunmazdır. Bilik o zaman insan mənsubiyyətinə çevrilir ki, o şəxsi münasibət prizmasından keçir və "şəxsi məna" kəsb edir. Amma bu gücləndirmə xüsusi olmalıdır. Biliklərin və anlayışların sadə qavranılması kifayət deyil. Ona görə ki, təfəkkür əldə olunan biliklə hazır ki, vaxtda qəbul olunan biliyin məqsədyönlü birliyini təklif edir. Məsələn, mühəndis üçün hazırlığın etibarlı təyinatı üçün qurğunun və ya mexanizmin necə qurulması barədə bir bilik kifayət etmir. Hər bir detalı və hissəni yoxlamaq üçün gözə az

dəyən dəyişiklikləri müqayisə etmək və qiymətləndirmək lazımdır.

Qoyulan məsələyə yaradıcı yanaşma, əldə olunan biliyin düzgün şəkildə istiqamətləndirilməsi olmadan mümkün deyil. Cari informasiyanın hər tərəfli analizi onun fərqli istifadə yolları ilə müqayisə olunur. Buna görə də tələbələr üçün peşə fəaliyyəti sahəsində əqli qabiliyyətin təhlili, sintezi, ümumiləşdirilməsi, təsnifatı, qiymətləndirmə bacarıqlarının inkişaf problemlərinin həllinin praktikləşdirilməsi zəruridir. Məqsədyönlü təlimlər və yaranan mühüm problemlər, tələbələrin təfəkkürünün mütəmadiliyini və effektliyini artırır (məsələlərin müəyyən olunmuş vaxtlarda həlli).

Professional təfəkkürün formalaşmasında, tələbələrin aldığı yüksək təhsil və subyektlərin təhlili əsas götürülür. Məsələn, tədqiqatlar onu göstərir ki, texniki fənlər üzrə təhsil alan tələbələr (1-ci kurs), humanitar fənlər üzrə təhsil alan tələbələrə nisbətən psixoloji baxımdan daha az şifahi intellektə malikdir.

Professional aktivlikdə əhəmiyyətli və xarakterik olanın mənimsənilməsi, iş vəzifələrinin orijinal həll yollarının tapılması ümumi strukturun formalaşmasından ayrıla bilməz. Bu struktura müqayisə etmək, analiz etmək, sintez əməliyyatlarının həyata keçirilməsi, mücərrədləşdirilməsi, konkretləşdirilməsi, təsnifatı, geniş səfərbərlik şablonunun qarşısının alınması, xüsusi məlumatlara uyğun yaradıcı bilikləri daxildir.

Universitetdə tədris prosesində professional düşüncənin formalaşması müəllimdən onu tələb edir ki, o tələbələrə nəinki faktların mənimsənilməsi, obyektlərin vizual xüsusiyyətləri, məzunların əmək bazarında baş verən hadisələrin öyrənilməsi, həm də bu faktları sistemləşdirərək qiymətləndirməli və müzakirə edilməlidir. Düşüncənin formalaşması o deməkdir ki, müəyyən biliklərin əsasında tələb olunan formanın öyrənilməsi və istifadə olunması tələbələrin aktiv fəaliyyətini təmin edir. Əməliyyat proseslərinin təkmilləşdirilməsi, düşüncənin növləri və formaları həmçinin əqli keyfiyyətin professional fəaliyyətin məsələlər ilə mütənasib olunmasından asılıdır. Məsələn, riyaziyyat müəllimi izah etdiyi mövzunun xüsusiyyətlərini və tələbələrin təfəkkürünü necə hesab edir. Zəruri olaraq ilk əvvəl tələbələr ali riyaziyyat məsələlərinin həllində düşüncə prosesinin qanunlarını bilməlidir.

Psixologiyada iki əsas düşüncə aspektinə baxılır: məhsuldar və qeyri-məhsuldar.

Məhsuldar düşüncənin fəaliyyəti ilə yaranan aktivlik evristik aktivlik adlanır, bu təfəkkür prosesləri də evristik proses adlanır. Qeyri-məhsuldar təfəkkür yeni strategiya yaratmır bu proses əvvəlcədən bilinən yollarla gedir.

Buna görə də istehsal və elmi fəaliyyət məhsuldar təfəkkürün birbaşa iştirakı olmadan edilə bilməz. Buna görə də riyaziyyatın tədrisini elə qurmaq lazımdır ki, tələbələrin təfəkkürünün evristik proseslərinə ən yaxşı töhfələrin versin.

Tələbələrdə evristik düşüncə prosesinin formalaşdırılması, məsələnin həllinə istiqamətlənmiş evristik sual-proqram ardıcıllığından istifadəsinə təşviq edir.

Tələbələrin imtahana psixoloji hazırlığı daimi lazımdır: onun ardıcıllığının, tələblərinin, qiymətləndirmə kriteriyalarının, suallara yaradıcı cavablarının hazırlığının formalaşmasının aydınlaşdırılması və s. Müəllimin imtahana psixoloji hazırlığı tələbələrə obyektiv yanaşmanın, onların fərdi xüsusiyyətlərinin nəzərə alınması, biliklərin yoxlanmasının mükəmməlliyi və hərtərəfliliyi, subyektivizm və volyuntarizmin qarşısını almağın formalaşması ilə ifadə edilir. İmtahandan əvvəl müəllim hər bir tələbənin təhsilinin gedişi barədə informasiyaları cəmləyir, mümkün qiymətləri proqnozlaşdırır.

Müəllim özünü uzunmüddətli işə kökləyir, xeyirxahlıqla hazırlaşır, diqqətini azaltmadan yetişdirmələrinin cavablarını oxuyur, özünün imtahan qəbul etmə təcrübəsi və əməkdaşlarının təcrübələrini analiz edir, metodiki ədəbiyyatı nəzərdən keçirir. Özünün fərdi xüsusiyyətlərini

bilərək müəllim mühazirə materialından istifadə etməyən, lakin ədəbiyyat mənbələrinin öyrənilməsi əsasında dərin və yaradıcı cavab yazan tələbəyə qarşı tənqidi şəkildə qərar qəbul edir.

Müəllimlər bəzən səhv edirlər. Belə ki, semestrlə müqayisədə, imtahan zamanı tələbələrin bilik səviyyəsinə gözlənilmədən tələbatları artır ki, bu da bir qayda olaraq, tələbələrdə müəllim barəsində mənfi fikirlərin meydana gəlməsinə gətirib çıxarır.

Son illərdə ölkəmizin qabaqcıl ali təhsil müəssisələrində çox vaxt semestr ərzində bir neçə dəfə tələbələrin biliyinin qiymətləndirilməsi sistemindən istifadə olunur. Ona görə ki, tələbələr imtahanlardan keçərək semestr ərzində onların əməyinə müəllimlərin təxmini qiymətini bilsinlər. Tələbələrin qiymətləndirilməsi, semestrin müəyyən dövründə onların bütün işlərinin keyfiyyətinin ictimai qiymətləndirilməsidir. Qiymətləndirmə üçün əsas, hər şeydən əvvəl, tələbənin cari hazırlıq səviyyəsi, kollektivdə onun hərəkəti və ictimai işi hesab edilir.

Tələbələrdə - nəzəri və praktiki məsələlərin həllində (xüsusilə də öz ixtisasları üzrə) öz orijinallığı, dəqiqliyi və rahatlığı ilə səciyyələnən peşəkar yönlü yaradıcı düşüncəni formalaşdırmaq lazımdır.

Müstəqil düşüncənin inkişafı ali məktəbin ən mühüm vəzifələrindən biridir. Onun həlli zamanı insanın müstəqil düşüncəsinin müxtəlif təzahürlərini, xüsusilə də, onun təkcə hər hansı yeni problemi həll etmə qabiliyyətini deyil, həm də bu problemləri müstəqil görmə qabiliyyətini də nəzərə almaq lazımdır. Problemi görə bilməmək – təhsil materialının mənimsənilməsində formalizmin nəticəsidir. Bu da ondan ibarətdir ki, tələbə müxtəlif elmi məsələlərin sadəcə konkret məzmununu yadda saxlayır, ancaq onların nədən ibarət olduğunu görmür. Əgər həll olunan məsələ tələbənin özü tərəfindən aşkar olunubsa bu əqli fəaliyyətin yüksək səviyyəsi ilə bağlıdır, bu zaman biliklərin əldə edilməsi yaradıcı yolla gedir və onları daha yüksək keyfiyyətlə təmin edir. Bu zaman mənimsənilmiş biliklərin əsasını qavrayış deyil, xarici - praktiki və yaxud daxili - əqli fəaliyyət təşkil edir.

Tələbələrin idraki fəaliyyətinin intensivləşdirilməsi metodu kimi problemli vəziyyətlərin yaradılmasından istifadə edirlər.

Problemli vəziyyətin həllini müxtəlif yollarla aparmaq olar: mustəqil tədqiqat yolu (ilk öncə verilmiş məsələ ilə bağlı tapşırıq və məsləhətlər verilir) və ya verilmiş məsələnin həlli üçün zəruri olan məlumatları sahibinə bildirərək. Ancaq istənilən halda məchulun axtarışı bu cür vəziyyətlərdə yeni biliklərin mənimsənilməsi prosesi ilə üst-üstə düşür. Müəllimin rolu yaranmış suallara cavabların axtarılması prosesinin idarə edilməsindən ibarətdir.

Burada artıq mənimsəmə prosesinin ümumi qanunauyğunluqlarından biri - şəxsiyyətin intellektual aktivliyi ortaya çıxır. Əgər müəllim tələbələrə müəyyən mövzu üzrə ardıcıl qoyulmuş problemli tapşırıqlar sırasının necə həll edildiyini göstərirsə, onda o bununla gələcək mutəxəssislərə problemi axtarmaq və həll etməyi öyrədir, yəni onları elmi tədqiqatların aparılmasına hazırlayır.

Tələbənin təlim zamanı peşəkar düşüncəsi onun elmi dünyagörüşünün inkişafı, məsuliyyətlilik hissi, iradi keyfiyyəti, şəxsiyyətin peşəkar yönləndirilməsi, gələcəkdəki işinin real şəraitinə yaxın şərtlərdə iş təcrübəsinin toplanması ilə daha yüksək səviyyəyə qalxır.

Tələbənin təlim və tərbiyəsi - onların psixikasına və fəaliyyətinə təsir etməkdir, biliklərlə və bacarıqlarla silahlandırmaqdır. Bunun əsasında tələbənin psixikasında hərtərəfli inkişaf baş verir. Təlim və tərbiyə gələcək peşəkarın formalaşmasında əsas rol oynayır. O, tələbənin elmi dünyagörüşünə, intellektual qabiliyyətinin aktivliyinə və başqa keyfiyyətlərinə təsir edir.

Təlimdə psixologiyanın vəzifəsi yalnız effektli biliyin, bacarığın öyrənilməsi deyil, hətta

tələbənin təlim, tərbiyə prosesində psixoloji inkişafıdır.

Beləliklə, təlim prosesində tərbiyə məsələlərinin həlli üçün tələbələrin fərdi, psixoloji, yaş və sosial psixoloji xüsusiyyətlərini nəzərə almaq labüddür. Bundan başqa müasir mütəxəssis üçün metodoloji və professional hazırlıq, psixoloq və tələbələrin qarşılıqlı fəaliyyəti vacibdir. Tələbə şəxsiyyətinin uğurlu formalaşdırılması, pedaqoji və psixoloji ustalıq, tədrisi ideyayönlü etmək və fənnin tərbiyəedici imkanlarının yaradıcı şəkildə istifadəsi təlim və tərbiyənin vəhdətinin vacib şərtidir.

**Məqalənin aktuallığı**. Tələbələrin təlim və tərbiyə prosesi vəhdət təşkil edir. Şəxsiyyətin formalaşması və inkişafinda əhəmiyyətli rol oynayan bu qarşılıqlı prosesin psixoloji mahiyyətinin öyrənilməsi baxımından məqalə aktual hesab olunmalıdır.

**Məqalənin elmi yeniliyi**. Elmi yenilik ondan ibarətdir ki, mövzunun işlənilməsi zamanı məktəb prinsiplərindən başqa, tələbələrdə təlim və tərbiyənin vəhdətinin psixoloji mahiyyətini özündə ehtiva edən digər prinsiplərdən də istifadə olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar da istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı, 2008.
2. Əliyev B.H., Müəllim-tələbə münasibətlərinin təlim prosesini təsiri. Bakı, 1998.
3. Əliyev B.H., Əliyeva K.R., Cabbarov R.V. Pedaqoji psixologiya. Bakı, 2011.
4. Qasımov L.N., Mahmudova R.M., Pedaqogika. Bakı, Çaşıqoölu, 2003.
5. Давыдова В.Г. Основы педагогической психологии высшей школы: Курс лекций. М., 2007.
6. Основы педагогики и психологии высшей школы / Под ред. А.В. Петровского. М., 2010.
7. Рубинштейн С.Л. Принципы и пути развития психологии. М., 1999
8. Психология и педагогика / Под ред. А.А.Радугина. М., 2007.
9. Самыгин С.Д. Педагогика и психология высшей школы. М., 2006.
10. Смирнов С.Д. Педагогики и психология высшей школы. М., 2006.

**Я. Велиева, К. Казимова**

## Психологическая сущность единства обучения и воспитания студентов

## Резюме

В статье подробно рассматривается проблема важнейших основ успеха в практической деятельности знаний, умений и навыков студента как будущего специалиста. Внешне эта система проявляется в своевременном выполнении полученных заданий, точной и безупречной деятельности. Наряду с этим профессиональные навыки основываются на высоких мотивах, определенных нравственных и психологических качествах. Потому формирование знаний, умений и навыков, наряду с формированием личности в целом должно совпадать друг с другом. Проблема в статье рассматривается именно в указанном ракурсе. Здесь также рассматривается роль обучения и воспитания в формировании личности студента.

**Y. Veliyeva, K. Kazimova**

# The essence of the psychological unity of training and education of students

## Summary

The article discusses that the knowledge, skills and habits that are responsible for the future expertise of a student are a very important prerequisite for success in his professional practice. Absolutely this system shows itself in the precise and impeccable activities of the specialist in the creative realization of the tasks. At the same time, professional skills are based on the high motivation, moral and psychological qualities of the specialist. Therefore, the article summarizes the overall coincidence of the formation of knowledge, skills and habits with the formation of the student's personality. The article also outlines the role of education and upbringing in student identity.

**Redaksiyaya daxil olub:** 12.02.2018